## Üzə güldü əməlim

Bu dünyanın ahəngi çox, rəngi çox,
Bu dünyanın sirri Xudaya bəlli.
Açılmayan tapmacası, mərci çox,
Aqil gərək aşkarlaya bu həlli.

Yola çıxdım, sonsuzluğa tuş oldum,
Bir daş idim, nəfəs dəydi quş oldum,
Ənginlikdə qanad çaldım, baş oldum,
Cığır açıb, belə qoydum təməli.

Üz tutduğum günəş oldu, ay oldu,
Ulduzlar da bu gecəyə hay oldu,
Mən də dönüb gözəlliyə tay oldum,
Hara baxdım üzə güldü əməlim.

## Adını çəkməyə bir ney istərəm

Ruhumun, varımın əzəli, bütü,
Canıma can verən ürəyim mənim.
Dünyam nur içində, tamam, büsbütün,
Yolun öz yolumdu, gərəyim mənim.

Adını çəkməyə bir ney istərəm,
Eşqin atəşidir canıma düşüb.
Özüm də bilmirəm bu necə sirdir,
Bu yollar harada, haçan görüşüb.

Nurunun izinə düşüb gedirəm,
Gözümdə yerlə göy bir havadadı.
Günəş aya həsrət, görüşə bilmir,
Əzəldən eləcə qovha-qovdadı.

Qulunam Əfəndim, qulunam Mövlam,
Yolunda bir zərrə dənəciyəm mən.
Tərki-dünyadayam, səni gəzirəm,
O parlaq üzünü görəcəyəm mən.

Ey şahım, sultanım, yoxdan var ol gəl,
Söz nədir, nəfəsin bəs edər mənə.
Gəlimli-gedimli yerlərdən danış,
Güllərin, çiçəyin dərsin ver mənə.

Dərgahın müqəddəs, yolçusu özüm,
Ömrümə çatammaz, yolu uzundu.
Varımla-yoxumla sənə bağlıyam,
Şükür, gözəlliyin odun qazandım.

## Sevgi gəzirəm

Sevgi gəzirəm
Babam,
Sevgi,
Bir mərifət sevgisi.
Tutub
haqqın ətəyindən,
Görən kimdi
itkisi?
Sevgi gəzirəm
Babam,
Sevgi,
həqiqətin özünü.
Dərgahımın
yolu bəlli.
Deyəcəyəm
sözümü.
Sevgi gəzirəm
Babam,
Sevgi,
Yer üzünün
özündə.
Könüllərin
yaz vaxtıdı.
İlahilər
sirr dünyamız.
Qəlbi kövrək,
gözü nəm.
Sevgi gəzirəm
Babam,
Sevgi,
Könüllərin içində,
Yolum uzun,
yol gedirəm.
Sevgi
mənim içimdədi,
içimdə.
Sevgi gəzirəm
Babam,
Sevgi,
Mövlana,
Yunus
Sevgisi.
Zikr edirəm,
dönəm başına.
Qaytaram
Tanrı sevgisin...
İz salan mən
dağa,
daşa.
Hay salan mən.
Babam, hu...,
Başım dəyir
daşdan-daşa.
Elə sevgi
gəzə-gəzə,
Mən yolların
yorğunu.

## "Hu" deyəcəm...

Gül bağçasına düşdüm,
Xamıydım, bişdim içində.
Behiştin ətrini duyub,
Yandım seçimin içində.

İmanım, duyğum coşğumdu,
Könlümün nurlu aynası.
Pərvanəyəm, eşq gəzirəm,
Məni qınayan olmasın.

Dağ başında zikr edən mən,
Neyə dönüb «hu» deyəcəm.
Səsi könlümə düşəcək,
İlahidi bu ..., deyəcəm.

## Səma rəqsi

Yerlə,
Göyün arasında,
Səmazənlər
süzür- süzür.
Aman Allah!
Elə bil ki,
qu quşudu.
Mavi gölün
üzərində
Üzür-üzür.
Səma rəqsi!
Sirlə dolu
bir möcüzə.
Neyin səsi
Tanrıdandı.
İlahilər səsləndikcə
nur çilənir
üzümüzə.
Səma rəqsi!
Gözəlliyin
özüdür o.
Könüllərin
büllur kimi
sözüdür o!
Mövlanədən
gələn nida.
Dünyam mənim.
Səmazənlər
zikr edirlər.
Ulduzlar da
cuşa gəlib.
Gül qoxulu
röyam mənim.
Bir əl göydə,
bir əl yerdə.
Yerlə-göyü
birləşdirir.
İnsanlığı,
ucalığı,
Bu dünyada
xoş niyyəti
Qüdrətiylə,
varlığıyla cəmləşdirir.